Yeni Dizaynlı 5 dollarlıq Əskinaz

Daha təhlükəsiz. Daha zərif. Daha etibarlı.

# Verilənlər Cədvəli

## Yeni dizaynlı 5 dollarlıq əskinaz və onun Saxtalaşdırılmasının qarşısının alınması

Federal Ehtiyat, ABŞ Maliyyə Nazirliyi və Məxfi Xidməti müntəzəm olaraq yeni dizaynlar və təhlükəsizlik cizgiləri təqdim etməklə, əskinazların saxtalaşdırılmasının qarşısını almaq üçün qəti və sərt qanunları həyata keçirməklə ABŞ valyutasının toxunlamazlığının qorunmasında məsuliyyət daşıyırlar.

**İstənilən əskinaz saxtalaşdırıla bilər. Təhlükəsizlik əlamətlərini öyrənərək özünüzü aldanmaqdan qoruyun.**

- **Təhlükəsizlik əlamətləri yeni 5 dollarlıq əskinazların həqiqiliyini yoxlamağı asanlaşdırır və onun saxtasını hazırlamağı çətinləşdirir. Əskinazları işığa tutub bu əlamətləri yoxlayın:**
    - **Su nişanları:** Bu əskinazda iki su nişanı var. İri rəqəmlə yazılmış “5” su nişanı, köhnə dizaynlı beş dollarlıq əskinazda olan Prezident Linkolnun şəklini əvəz edən şəklin sağındakı boş yerdə yerləşir. İkinci su nişanı – üç kiçik “5”-dən ibarət sütun – yeni 5 dollarlıq əskinaz dizaynına əlavə edilib və şəklin solunda yerləşdirilib
    - **Təhlükəsizlik sapı:** Əskinazı işığa tutun və şəklin sağ tərəfinə şağuli istiqamətdə həkk olunmuş təhlükəsizlik sapını və ya plastik zolağı axtarın. Əgər diqqətlə baxsanız əskinazın hər iki tərəfindən sap boyu “USA 5” sözünü görə bilərsiniz.  Təhlükəsizlik sapı ultrabənövşəyi işığın altında mavi rəngə çalır.

**İctimaiyyətin məlumatlandırılması, qanunun həyata keçirilməsi və mükəmməlləşdirilmiş təhlükəsizlik əlamətləri saxtalaşdırmanın qarşısını almağa kömək edir.**

- İri miqyasda, saxta valyutanın iqtisadi təsiri minimaldır, ancaq saxta əskinazları qəbul edən şəxslər əsl maliyyə itkilərini hiss edirlər.
    - 2007-ci ildə ABŞ-da ictimaiyyət saxta əskinazların nəticəsində təxminən 61,4 milyon dollar itkiyə məruz qaldı. Bu göstərici dövriyyədə olan 770 milyarddan çox dollarla müqayisədə əhəmiyyətli olmasa da, bu saxta əskinazları qəbul edən şəxslər üçün hiss ediləcək maliyyə itkisidir.

**Saxtalaşdırmanın qarşısını almaq üçün ABŞ hökuməti kağız pulların dizaynını yeniləməyə davam edir.** 13 mart 2008-ci ildə yeni 5 dollarlıq əskinaz, ondan sonra isə yeni 100 dollarlıq əskinaz buraxılacaq.

# Verilənlər Cədvəli

- Yeni dizaynlı 5 dolarlıq əskinaz, 5 dollarlıq əskinazdan mürəkkəbi silərək onu 100 dollarlıq əskinaza oxşadan saxtalaşdırma üsulunun qarşısını almağa kömək edəcək.  Siz qəbul etməzdən əvvəl 100 dollarlıq əskinazı yoxlamalısınız. Köhnə 5 dollarlıq və indiki 100 dollarlıq əskinazda eyni yerdə portret su nişanı olduğundan, 100 dollarlıq əskinazdakı su nişanının Ben Franklinin portreti olduğunu yoxlayın.

- Saxtalaşdırmanın qarşısını almaq və maliyyə təşkilatları, professional mübadilə mərkəzləri və ictimaiyyətin kağız pulların həqiqiliyini yoxlamasını asanlaşdırmaq üçün 1996-cı ildən bəri 10, 20 və 50 dollarlıq əskinazlar yeni mükəmməl təhlükəsizlik əlamətləri ilə yenilənib.